Əpoş VƏLİYEV
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Folklor İnstitutu
"Qərbi Azərbaycan folkloru" şöbəsinin aparıcı elmi işçisi
E-mail: eposhveliyev@anas.az
ORCID ID: 0009-0004-0934-2645
https://doi.org/10.59849/2309-7949.2026.3.103

YEL ÇƏRŞƏNBƏSİ: AZƏRBAYCAN FOLKLORUNDA YEL BABA VƏ KÜLƏK MƏRASİMLƏRİ

Açar sözlər: Folklor, Yel çərşənbəsi, Novruz, mifologiya, etnoqrafiya, mərasim, ritual.

ЙЕЛ ЧЕРШЕНБЕСИ (ВЕТРЯНАЯ СРЕДА): ЙЕЛ БАБА И ОБРЯДЫ ВЕТРА В АЗЕРБАЙДЖАНСКОМ ФОЛЬКЛОРЕ

АННОТАЦИЯ

В статье с научной точки зрения исследуется мифологическая, космогоническая и этнографическая сущность Ветряной среды (Йел чершенбеси). Основная цель исследования заключается в определении семантической и функциональной нагрузки Ветряной среды не только как природного явления, но и как одного из четырёх первоэлементов - воздуха (ветра), участвующего в модели мироздания. В работе показано, что ветер выступает движущей и связующей силой между стихиями воды, огня и земли, играя важную роль в пробуждении природы и восстановлении космического порядка. В статье анализируются обряды и ритуалы, исполняемые в этот день - разжигание костров, подбрасывание предметов быта в воздух, очистительные действия, традиции праздничного стола - на основе этнографических материалов. Особое внимание уделяется традиции Нахчывана, где этот день отмечается как «чёрный праздник» или обряд «выхода из траура», что интерпретируется в контексте культа предков, социальной солидарности и коллективной памяти. Образ «Йел баба» рассматривается как трансформированная форма древнетюркского культа божества ветра; направляющая, регулирующая и охранительная функции ветра обосновываются на материале фольклорных источников. Кроме того, с функционально-семантической точки зрения анализируется практическая роль стихии ветра в земледельческой и гуменной культуре, включая обряды веяния зерна и сопровождающие их ритуальные песнопения. Через легенду о «Фатме нене», мифологические представления о радуге, пословицы и поверья раскрывается символика ветра как воплощения силы, изменчивости и плодородия в народном сознании. Таким образом, Ветряная среда и связанные с ней обряды, мифологические образы, пословицы и верования представляют собой богатое культурное наследие, отражающее древние космогонические представления, нравственно-этические ценности и отношение к природе азербайджанского народа.

Ключевые слова: фольклор, Ветряная среда (Йел чершенбеси), Новруз, мифология, этнография, обряд, ритуал.

"YEL CHARSHANBA" (WIND WEDNESDAY): "YEL BABA" AND WIND RITUALS IN AZERBAIJANI FOLKLORE

ABSTRACT

The article examines the mythological, cosmological, and ethnographic essence of "Yel Charshanba" (Wind Wednesday) from a scholarly perspective. The main objective of the study is to determine the semantic and functional significance of Wind Wednesday not merely as a natural phenomenon, but as one of the four primordial elements - air (wind) - participating in the model of cosmic creation. The research demonstrates that wind functions as a dynamic and mediating force among the elements of water, fire, and earth, playing a crucial role in the awakening of nature and the restoration of cosmic order. The article analyzes the rituals and ceremonial practices associated

with Wind Wednesday - such as bonfire lighting, throwing household items into the air, purification rites, and festive table traditions - on the basis of ethnographic materials. Particular attention is paid to the tradition in Nakhchivan, where this day is observed as "Black Festival" or a "farewell to mourning" ceremony, interpreted within the context of ancestor cult, social solidarity, and collective memory. The study evaluates the image of "Yel Baba" as a transformed manifestation of the ancient Turkic cult of the Wind Deity, emphasizing the guiding, regulating, and protective functions of the wind as reflected in folklore texts. Furthermore, the practical role of the wind element in agricultural and threshing culture, including grain winnowing rituals and accompanying ceremonial chants, is examined from a functional-semantic perspective. Through the legend of "Fatma nene", mythological interpretations of the rainbow, proverbs, and folk beliefs, the symbolic meanings of wind - strength, changeability, and fertility - are revealed in popular consciousness. Thus, Wind Wednesday and its associated rituals, mythological images, proverbs, and beliefs represent a rich cultural heritage embodying the ancient cosmological worldview, moral-ethical values, and ecological perceptions of the Azerbaijani people.

Keywords: Folklore, "Yel Charshanba" (Wind Wednesday), Novruz, mythology, ethnography, ceremony, ritual.

Novruz bayramı Azərbaycan xalqının ən qədim təqvim-mərasim sisteminə daxil olan, zəngin semantik məzmun daşıyan və milli-mədəni kimliyin formalaşmasında mühüm rol oynayan bayramdır. Bu bayram yalnız mövsümi dəyişikliklərlə bağlı təbiət hadisəsini deyil, həm də xalqın mənəvi-əxlaqi dəyərlər sistemini, kosmoqonik təsəvvürlərini və ənənəvi dünyagörüşünü özündə əks etdirir. Tarixi-etnoqrafik mənbələr göstərir ki, Novruz mərasimləri Azərbaycanda əsrlər boyu formalaşaraq kollektiv yaddaşın və sosial həmrəyliyin vacib komponentinə çevrilmişdir.

Novruz bayramından öncə qeyd edilən dörd çərşənbə qədim mifoloji təsəvvürlərə əsaslanaraq kainatın yaranmasında iştirak edən dörd əsas ünsür; su, od, yel və torpaqla əlaqələndirilir. Bu ardıcıllıq təbiətin mərhələli oyanış modelini simvolizə edərək xalqın kosmoqonik baxışlarının sistemli ifadəsi kimi çıxış edir. Hər bir çərşənbə adını daşıdığı ünsürün dirçəlişini və canlanmasını təcəssüm etdirir. Bu kontekstdə "Yel (külək, hava) çərşənbəsi" xüsusi bir mərhələni ifadə edir. Xalq arasında "Külək oyadan çərşənbə", "Küləkli çərşənbə", "Hava çərşənbəsi" kimi də tanınan bu gün mifoloji düşüncədə həyat enerjisinin və dinamik hərəkətin simvolu hesab edilir. Ağaverdi Xəlil qeyd edir ki, məzar ziyarətinə görə "ölü çərşənbə" də deyilir (4, s.93). Şərur rayonunda isə üçüncü çərşənbəyə həm də "qara bayram" deyirlər. Çünki bu çərşənbədə il ərzində vəfat edənlərin məzarı və evləri ziyarət edilir, "yasdançıxma" mərasimi icra olunur (6, s.15). İnanc sisteminə görə məhz bu çərşənbədə oyanan yel su və od ünsürlərini hərəkətə gətirir. Mifoloji ardıcıllığa əsasən, suyun axıcılığı, odun istiliyi və yelin hərəkəti birgə şəkildə torpağın oyanmasına səbəb olur. Torpaq bu proses nəticəsində hərəkətə gəlir, isinərək məhsuldarlıq mərhələsinə qədəm qoyur. Bu təsəvvür əkinçilik təqviminin başlanğıcını simvolizə edir.

Yel çərşənbəsi Novruz mərasim kompleksinin mühüm tərkib hissəsi kimi rituallar baxımından zəngin ənənələrlə müşayiət olunur. Bu gün icra edilən mərasim və adətlər xalqın mifoloji təsəvvürləri ilə yanaşı, sosial-məişət həyat tərzi ilə də sıx əlaqədardır. Yel çərşənbəsi günü həyətlərdə tonqalların qalanması qədim od kultunun izlərini yaşatmaqla bərabər, həm də təmizlənmə və yenilənmə ideyasını simvolizə edir. Odun üzərindən tullanmaq və tonqal ətrafında toplaşmaq cəmiyyətdə birliyi möhkəmləndirən kollektiv ritual xarakteri daşıyır. Evlərdə plov (aş), südlü plov, lobyalı aş, bulğur aşı və s. kimi dənli bitkilərdən ənənəvi yeməklərin

hazırlanması, quru meyvələrin düzülməsi bayram süfrəsinin bolluq və bərəkət rəmzi kimi formalaşdığını göstərir. Bu günün diqqətçəkən mərasim elementlərindən biri də ev əşyalarının həyətə çıxarılmasıdır. Evlərdəki yorğan-döşək, xalça-palaz, geyimlər həyətə çıxarılır, barıların, məhəccərlərin üstünə sərilərək çırpılır və təmizlənir. Bu ənənə həm praktik gigiyenik tədbir, həm də rituallaşdırılmış təmizlənməni əks etdirir. İnama görə yel çərşənbəsində yorğan-döşək, xalça-palaz, geyimlər havaya verilərsə, təmizlənər, paklanar. Burada külək təmizləyici və saflaşdırıcı qüvvə kimi qəbul edilir və bu qədim təbiət inancına əsaslanır (6, s.15).

"Yel baba" mərasimi genezisi etibarilə qədim türk inanclar sistemində mühüm yer tutan Yel Tanrısına sitayişlə bağlıdır. Bu inanc, təbiət hadisələrinin ilahiləşdirilməsi zamanı yaranıb və küləyin kosmik və müqəddəs güc kimi qəbul olunmasına əsaslanır. Şifahi xalq yaradıcılığında Yelin Tanrı olması ilə bağlı müxtəlif nəğmə, əfsanə, rəvayət, mif, inanc və s. var. Azərbaycan nağıllarında da rast gəldiyimiz "Yel baba" obrazı və onun nağıllardakı rolu da diqqət çəkir. Bu göstərir ki, külək həm təbiət hadisəsi, həm də mifoloji varlıq kimi qəbul olunub. Azərbaycan mifik təfəkküründə yel həm dağıdıcı, həm də istiqamətverici qüvvə kimi ikili semantik çalar daşıyır. Xüsusilə onun yol göstərən, bələdçi funksiyası nağıl və rəvayət süjetlərində aydın şəkildə ifadə olunur. Yel baba (əksər hallarda əldən-ayaqdan düşmüş qarı obrazında peyda olur) adətən köhnə, zəif qadın kimi təsvir edilir, amma o, güclü mifoloji xüsusiyyətlərə malikdir və görünüşü ilə fövqəltəbii güclər arasında maraqlı bir ziddiyyət vardır. Nağıl motivlərində Yel baba qalın meşələrdə yolunu azmış, mənzilini tapmaqda çətinlik çəkən insanların qarşısına çıxaraq onlara kömək edir. O azan insana bir yumaq verir və yumağı yerə atıb diyirlətməyi tapşırır. Yel babanın üfürməsi ilə yumaq açılır və yolunu azmışları mənzil başına çatdırır. Bu motiv mifoloji şüurda yelin həm hərəkətverici, həm də nizamlayıcı prinsip kimi qəbul edildiyini göstərir. Beləliklə, "Yel baba" obrazı və ona bağlı mərasimlər qədim inancların və xalqın simvolik düşüncəsinin davamıdır. Azərbaycan folklorunda o, kosmik nizamı qoruyan, yol göstərən və xeyirxah himayəçi kimi çıxış edən qədim mifoloji obrazdır (6, s.15).

Azərbaycanda bir sıra bölgələrdə, xüsusilə Naxçıvanda Yel çərşənbəsi yalnız təbiətin oyanışı ilə bağlı mərasim kimi deyil, həm də anım, yad edilmə günü kimi xüsusi məna kəsb edir. Bu gün əcdadların və dünyasını dəyişmiş yaxın qohumların yad edilməsi, onların ruhuna ehtiram göstərilməsi ənənəsi geniş yayılmışdır. Bu mərasimə bəzən "Qara bayram" da deyilir. Ənənəyə uyğun olaraq qəbiristanlıqlar ziyarət olunur, məzarlar təmizlənir və səliqəyə salınır. Bəzi kəndlərdə məzar üzərində şam yandırılır, səməni qoyulur və vəfat edənlərin ruhuna dualar oxunur. Sonra evdə ehsan süfrəsi hazırlanır. Ehsan yeməyi əsasən plov (aş), halva və s. olur. Ehsan qohum-əqrabalara və qonşulara paylanır. Qadınlar il ərzində itki baş vermiş bütün ailələri ziyarət edir, vəfat edən şəxsin yaxınlarına başsağlığı verir, onlara mənəvi dayaq göstərir və mərhumun ruhuna dualar edirlər (6, s.15). Həmin günün daha bir mühüm funksiyası isə "yasdan çıxarma" mərasimi ilə bağlıdır. Xalq inanclarına görə Yel çərşənbəsindən sonra artıq uzunmüddətli yas saxlamaq məqsədəuyğun hesab edilmir. Həmin gündən sonra ailənin yenidən ictimai həyata qayıtması, xeyir işlər etməsi, toy və digər şən mərasimlərə qatılması normal qarşılanır. Bu davranış forması cəmiyyətdə həmrəylik və qarşılıqlı dəstək mexanizminin

təzahürü kimi qiymətləndirilir. Belə mərasimlər həm dini inanclarla, həm də ənənəvi etiqadlarla bağlıdır və ölənlərin ruhuna hörmət göstərmək məqsədilə keçirilir.

Qədim zamanlarda hələ xırman mədəniyyətinin mövcud olduğu dövrlərdə yel ünsürü ilə bağlı xüsusi mərasimlər də icra edilirdi. Bu mərasim "Yel baba" adlanır və əsasən taxıl biçini başa çatdıqdan, məhsul xırmana daşındıqdan sonra taxılın sovrulması zamanı keçirilirdi. Ənənəvi kənd təsərrüfatı şəraitində kombayn və digər mexaniki vasitələr olmadığından taxıl əllə biçilər, dərz halında bağlanar və at, yaxud öküz arabaları ilə xırmana aparılardı. Dərzlər xırmanda döyüldükdən sonra əldə olunan dənin samandan, çör-çöpdən və digər qarışıqlardan təmizlənməsi üçün taxılın sovurulması prosesi həyata keçirilirdi. Bu mərhələdə küləyin, yelin rolu həlledici idi. Yel olmadıqda sovurma mümkün olmur, məhsulun təmizlənməsi daha da çətinləşirdi. Məhz buna görə də insanlar yeli sakral qüvvə kimi qəbul edir, onu köməyə çağırmaq məqsədilə xüsusi nəğmələr və çağırış mətnləri səsləndirirdilər. Bu çağırışlar həm də ritual xarakter daşıyırdı. "Yel baba, gəl, ağ atına arpa, saman apar" deyə yelə müraciətlə xırmanda oxunan nəğmələrdən biri belədir:

A Yel baba, Yel baba,
Tez gəl baba, gəl baba.
Sovur bizim xırmanı,
Atına ver samanı.
Dən yığılıb dağ olsun.
Yel babamız sağ olsun.
Taxılımız yerdə qaldı,
Yaxamız əldə qaldı.
A Yel baba, Yel baba,
Tez gəl baba, gəl baba (6, s.15).

Belə poetik mətnlərdə yel antropomorf obraz, "Yel baba" kimi təqdim olunur, ona müraciət edilir, hətta ağ atına arpa və saman veriləcəyi vəd olunur. Bu motiv qədim inanclarda təbiət qüvvələrinin insaniləşdirilməsi və onlarla qarşılıqlı münasibət qurulması tendensiyasını əks etdirir. İnanclara görə nəğmələrdən sonra yel əsər, sovurma prosesi asanlaşar və insanlar taxılı rahat şəkildə təmizləyərdilər. Beləliklə, "Yel baba" mərasimi qədim Azərbaycan kənd təsərrüfatı ənənələrini, mifoloji düşüncəni və təbiət qüvvələrinə inamı özündə birləşdirən mühüm etnoqrafik hadisə hesab oluna bilər.

Başqa bir nümunədə deyilir ki, "Xırman savıranda yel əsməsəydi, süpürgə yandırıb deyərdilər:

Yan süpürgə,
Yel gəti, gəl!
Süpürgə yandı,
Yandı oddandı.
Yanmağa tələs,
Əs, küləyim, əs!

Deyərlər ki, süpürgə yanandan sonra yel qalxardı" (2, s.15).

Külək və yel ünsürü ilə bağlı Azərbaycan folklorunda müxtəlif mifoloji süjetlər və rəvayətlər var. Bu rəvayətlərdə yel adətən antropomorf xüsusiyyətlər daşıyan, güc sahibi olan varlıq kimi təqdim edilir. Belə nümunələrdən biri də Fatı (Fatma nənə) qarı ilə bağlı olan mifoloji rəvayətdir. Bu rəvayətə görə qədim za-

manlarda Fatı qarı yeddi rəngdə ip əyirərək yumaqları dizinin altına qoyur və hanada toxumağa hazırlaşır. Bu zaman qəfil əsən yel yumaqlardan birini diyirlədərək açır və iplər dolaşır. Baş verən hadisədən qəzəblənən Fatı qarı "Azarım, bezarım dəymiş Yel baba, hardan gəlib çıxdı? İplərimi dolaşdırdı" deyərək yelə qarğış edir. Onun bu qarğışından Yel baba qəzəblənərək daha şiddətlə əsir, nəticədə bütün yumaqlar açılaraq bir-birinə dolaşır. Daha sonra iplər bir-birinə qarışaraq göyə doğru yüksəlir və yel onları uzaqlara aparır. Fatı qarı isə qarğışı-qarğışa calayaraq əl ağacı ilə Yel babanın arxasınca düşür, onu vurmağa və yumaqlarını geri almağa çalışır. Lakin nə yelə çata bilir, nə də ipləri geri qaytara bilir. Mifoloji izaha görə, həmin iplər sonradan yeddirəngli qurşağa çevrilərək göydən asılı qalır. Yağışdan sonra səmada görünən göy qurşağı xalq arasında həmin rəvayətlə əlaqələndirilir və ona "Fatı qarının hanası" və ya "Fatma nənənin saçaqları" deyilir (6, s.15). Bu adlandırma təbiət hadisəsinin mifoloji təfəkkür vasitəsilə açıqlanmasının bariz nümunəsidir. Beləliklə, rəvayət həm küləyin qeyri-adi gücünü, həm də xalqın təbiət hadisələrini obrazlı və simvolik şəkildə izah etmək istəyini göstərir.

Azərbaycan şifahi xalq ədəbiyyatında külək və yel obrazı təkcə təbiət hadisəsi kimi deyil, həm də güc, dəyişkənlik, təsir, tale və s. rəmzi kimi mənalandırılmışdır. Xalq təfəkküründə yel bəzən dağıdıcı, bəzən hərəkətverici, bəzən də qarşısıalınmaz qüvvə kimi təqdim olunur. Bu semantik çalarlar atalar sözlərində daha yığcam və obrazlı şəkildə ifadə edilmişdir. Külək və yel obrazı xalq hikmətində həm təbiət hadisəsinin müşahidəsindən doğan nəticələri, həm də insan davranışına dair ibrətamiz qənaətləri ifadə edən mühüm poetik vasitədir. Aşağıdakı nümunələrdə yel və külək anlayışının müxtəlif məna qatları əks olunur:

Yel eləyəni fələk eləyə bilməz (6, s.15).
Yel olmasa, sel olmaz (7).
Yel əsəndə yellənər, yol görəndə yollanar (6, s.15).
Külək kimi hərdən bir yana əsmə (6, s.15).
Yel qayadan nə aparar?(7)
Yelnən gələn, selnən gedər (6, s.15).
Yel apardığını qaytarmaz (7).
Yel aparan yelinki, yerdə qalan mənimki (3, s.82)

Azərbaycan xalq inanclar sistemində külək və yel təbiətin canlı, iradə sahibi ünsürü kimi qəbul edilir. Yel həm ruzi-bərəkət gətirən, həm də cəzalandırıcı gücə malik sakral qüvvə kimi təsəvvür olunur. Bu səbəbdən onunla bağlı formalaşan inanclar gündəlik təsərrüfat fəaliyyəti, əxlaqi davranış normaları və arzu-niyyət ilə sıx əlaqədardır. Yelin rolu həyati əhəmiyyət daşıdığından ona münasibətdə hörmətli davranmaq zəruri sayılmışdır. Aşağıdakı inanc nümunələri bunu aydın şəkildə göstərir:

✓ *Taxıl sovrulanda yel əsib işə mane olsa, ələyin, ya da xəlbirin üstünü bərk-bərk bağlayarlar, onda yel asta əsər* (7).

✓ *Yel baba xırmana gəlməmişdən qabaq oradan buğda, dən götürməzlər. Sovurulmamış buğda götürənin oğlu ölər* (5, s 67).

✓ *Yeli əsdirəni söyməzlər*(5, s 67).

✓ *Yel çərşənbəsi gecəsi söyüd ağacının altına gedib niyyət elə və Yel babanı çağır. Əgər Yel baba sənin səsini eşidib əssə və söyüdün budaqlarını torpağa toxundursa, diləyin yerinə yetər* (6, s.15).

Nəticə etibarilə, Novruz mərasim kompleksində "Yel (külək, hava) çərşənbəsi" həm kosmoqonik təsəvvürlərin, həm də xalqın gündəlik həyat təcrübəsinin və mənəvi dünyagörüşünün ifadəsidir. Yel ünsürü burada sadəcə təbiət hadisəsi kimi deyil, təbiətin oyanışında iştirak edən, hərəkət və dirçəliş gətirən sakral qüvvə olaraq təqdim edilir. Su, od və torpaqla birlikdə təsəvvür edilən yel, mifoloji düşüncədə həyatın başlanğıcını və yenilənməni şərtləndirən əsas amillərdən biri kimi çıxış edir. Yel çərşənbəsi ilə bağlı adətlər, tonqal qalamaq, süfrə açmaq, ev əşyalarını, geyimləri havaya vermək, qəbirləri ziyarət etmək, "yasdan çıxarma" mərasimi və s. xalqın həm təbiətlə uyğun yaşadığını, həm də birlik və həmrəyliyini göstərir. Bu gün həm də insanların əcdadlarını yad etməsinə, birliyini və ortaq yaddaşını qorumasına kömək edir. "Yel baba" mərasimi, xırmanla bağlı ayinlər, nəğmələr və çağırışlar küləyin kənd təsərrüfatında mühüm rol oynadığını və onun müqəddəs bir varlıq kimi qəbul edildiyini göstərir. Nağıl, mif və rəvayətlərdə Yel baba həm yol göstərən, həm də cəza verən bir qüvvə kimi təsvir olunur. Fatı (Fatma nənə) haqqında rəvayət isə təbiət hadisəsini sadə və obrazlı şəkildə izah edir və göy qurşağının xalq təfəkküründə hansı mənanı daşıdığını nümayiş etdirir. Atalar sözləri və inanclar külək və yel anlayışının xalq hikmətində nə dərəcədə dərin semantik məna qazandığını əks etdirir. Bu nümunələrdə yel dəyişkənlik, güc, təsir, bərəkət və qaçılmazlıq rəmzi kimi göstərilir. Beləliklə, Yel çərşənbəsi və onunla bağlı yaranmış mərasim, mifoloji obraz, atalar sözləri və inanclar Azərbaycan xalqının qədim kosmoqonik görüşlərini, mənəvi-əxlaqi dəyərlər sistemini və təbiətə münasibətini özündə birləşdirən zəngin mədəni irs nümunəsidir. Bu irs həm tarixi-etnoqrafik baxımdan, həm də milli kimliyin formalaşması kontekstində mühüm elmi əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT

1. Azərbaycan atalar sözləri (tərtibçi Bəydili C.). Bakı: Elm və təhsil, 2025, 352 s.
2. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru (tərt. Fərzəliyev T. Qasımlı M). Bakı: "Sabah", 1994, 388 s.
3. Əzizqızı Ç. Nənəmdən nəvəmə. Bakı: Elm və təhsil, 2012, 188 s.
4. Xəlil A. Türk xalqlarının yaz bayramları və Novruz. Bakı: "Elm və təhsil", 2012, 144 s.
5. Osmanova K. Xalq mərasimləri və nəğmələri. Bakı: Elm və təhsil, 2014, 96 s.
6. Vəliyev Ə. Hava çərşənbəsi-Yel çərşənbəsi. Kaspi qəzeti, 042 (3793), 07 mart 2017-ci il, səh.15
7. Vəliyev Ə. Şəxsi arxivindəki Naxçıvan MR-dan topladığı folklor nümunələrindən.